# Azad torpaqlarda firavan həyat: "Böyük Qayıdış" uğurla icra olunur

**"Böyük Qayıdış" proqramı Azərbaycan dövlətçiliyi tarixində yeni bir mərhələnin təməlini qoyan və strateji əhəmiyyət daşıyan dönüş nöqtəsidir.**

Proses gələcək nəsillər tərəfindən daim xatırlanacaq, anılacaq bir hadisə kimi əbədi yaddaşlara həkk olunub. Ata-baba torpaqlarına köç edənlərin nəvə və nəticələri də bu qayıdışın tarixi əhəmiyyətini hər zaman dəyərləndirəcəklər. 2020-ci ildə Vətən müharibəsində əldə olunan parlaq qələbədən sonra ölkə Prezidenti cənab İlham Əliyev "Böyük Qayıdış" konsepsiyasını elan etdi. Ardınca işğaldan azad edilən ərazilərdə təhlükəsizliyin təmin olunması, minaların və digər partlayıcı qalıqların zərərsizləşdirilməsi, eləcə



də genişmiqyaslı infrastruktur quruculuğunun başlanması ilə bağlı konkret tapşırıqlar verildi və bu işlərin gedişinə şəxsən nəzarət edilməyə başlandı.

**(davamı 13-cü səhifədə)**

GÜNÜN SİYASİ NƏBZİ








# Azad torpaqlarda firavan həyat:

## "Böyük Qayıdış" uğurla icra olunur



(əvvəli 1-ci səhifədə)

Qısa müddət ərzində Şuşaya qədər uzanan "Zəfər yolu" inşa olundu, daha sonra digər infrastruktur layihələrinin icrasına start verildi. Qazlaşdırma, elektrik enerjisi ilə təminat, yol, körpü, dəmiryolu xətləri və hava limanlarının tikintisi ilə paralel olaraq sosial obyektlərin, yaşayış məhəllələrinin və yeni şəhərlərin salınması üçün ciddi planlaşdırma işləri aparıldı. "Böyük Qayıdış" haqqında dövlət proqramı təsdiq olundu və bu çərçivədə layihələrin reallaşdırılması hazırda uğurla davam etdirilir. Son dörd il ərzində bu məqsədlə dövlət büdcəsindən 20 milyard manatdan artıq vəsait ayrılıb. Artıq işğaldan azad olunmuş bütün şəhərlərin baş planları hazırlanıb, bir sıra rayon və şəhər mərkəzlərində yenidənqurma və inkişaf prosesi sürətlə gedir.

Prezident İlham Əliyevin siyasi iradəsi və qətiyyətli rəhbərliyi ilə "Böyük Qayıdış" prosesi Zəfər salnaməsinin davamıdır. İyunun 24-də illərlə çətinlik görmüş, doğma yurdundan didərgin salınmış ailələrin bir qismi yenidən doğma torpaqlarına doğru yola çıxdı. Bu dəfə həyat yükü ilə dolu köç karvanı Ağdərə rayonunun Həsənriz kəndinə və Ağdam rayonunun Sarıcalı kəndinə üz tutdu. Bu mərhələdə Həsənriz kəndinə 40 ailə - 146 nəfər, Sarıcalı kəndinə isə 1 ailə - 4 nəfər köçürüldü. Uzun illərin nisgilindən sonra yurda qovuşan bu insanlar üçün bu an yalnız fiziki bir qayıdış deyil, həm də ruhun və mənəviyyatın bütövlüyüdür. Onların hər bir baxışında doğma elə, torpağa, ata ocağına dönmənin qüruru və qürbətin həsrətini arxada qoymağın sevinci oxunurdu. Qeyd edək ki, Həsənrizə gedən köç karvanı Tərtər şəhərindəki Bayraq meydanından yola salındı.

Xatırlatmaq yerinə düşər ki, bu ilin mart ayında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Həsənrizə köçən sakinlərlə bir araya gələrək onların sevincini bölüşdülər. Bu görüş təkcə bir protokol ziyarəti deyil, dövlətlə xalq arasında qırılmaz sarsılmaz bağın canlı təcəssümü idi. Dövlət başçısı burada aparılan yenidənqurma və bərpa ilə tanış oldu. Fərdi evlər, müasir infrastruktura malik küçə və məhəllələr, rahat həyat şəraiti yaratmaq üçün görülən əzəmətli layihələr artıq Həsənrizi tamamilə yeni simada təqdim edir. Bu mənzərə bir daha sübut etdi: bu torpaqlarda həyatın bərpası təsadüfi deyil, iradə və strateji baxışın nəticəsidir. Kəndin sakinləri onlara qayğı göstərən rəhbərlik qarşısında dərin minnətdarlıq duyğularını ifadə etdilər. Bu təşəkkür, eyni zamanda, illərlə yurd həsrəti ilə yaşayan bir xalqın azadlıqla, dövlət sevgisi ilə harmoniya içində yaşamaq istəyinin ən səmimi ifadəsi idi.

Prezident İlham Əliyev doğma yurdun övladları ilə birgə İlaxır çərşənbə tonqalını alovlandırdı - bu, həm baharın, həm də yeni həyatın simvolik başlanğıcı kimi tarixə düşdü. Dövlət başçısı burada səsləndirdiyi fikirlərlə bir daha xalqın qürur mənbəyinə çevrildi: O bildirdi ki, Həsənrizin azadlığı İkinci Qarabağ müharibəsi zamanı atılan qətiyyətli addımların nəticəsidir. Müharibənin ilk mərhələsində Qarabağın böyük hissəsi düşməndən təmizlənmişdi və sonrakı döyüş əməliyyatları ilə mövqelərimiz möhkəmləndirilmişdi ki, bütün bölgəni qısa zamanda nəzarətə götürmək mümkün olsun.



Bu gün yeni həyatla nəfəs alan Həsənriz kəndi Tərtər çayının sol sahilində yerləşir. Həsənriz adı özündə həm nizam, həm dirəniş, həm də möhtəşəm bir keçmişi daşıyır. Bu torpaq coğrafi sərhədlərdən çox uzaqlarda yerləşən ruhi sərhəddir. Hər qarışı, hər daşı, hər zərrəsi qanla yoğrulmuş müqəddəs bir yaddaşdır. O, tarix kitablarının səhifələrində deyil, şəhid qanıyla suvarılmış bu yurdun torpağında yazılıb. Araşdırmalara görə, Həsənriz kəndinin qədim adı Aterk və ya Ater qalası kimi tanınıb. Bu ad türk dillərindəki "atrak" sözünə - çayın mənsəbinə, yeni axarın sona çatdığı yerə bağlanır. XIII əsrdə Xaçın knyazı Həsən Cəlalın adı ilə anılan bu ərazi əsrlər boyu çətin və qanlı sınaqlardan keçib. Hər qarışı qəhrəmanların ayaq izləri ilə doludur.

Qeyd edək ki, Böyük Qayıdış prosesi təkcə soydaşlarımızın doğma yurda qayıdışını ehtiva etmir. Həmçinin, dövlət bu müqəddəs dönüşün real dayanıqlı əsaslarla möhkəmlənməsi üçün hərtərəfli addımlar atır. Cəlbedici sosial paketlər, güzəştlər, məşğulluq imkanları artıq reallığa çevrilib və minlərlə insanın həyatına yeni üfüqlər açır. İndi bu torpaqlarda yaşayan və işləyən hər bir vətəndaş üçün 10 il müddətinə vergi yükü aradan qaldırılıb. Sosial sığorta haqları dövlət tərəfindən qarşılanır. Bu, dövlətin öz vətəndaşına olan qayğısının canlı nümunəsidir. İş həyatına başlayan hər kəs üçün birdəfəlik müavinət ayrılıb. Ailələrin rifahı ümummilli bir hədəfin əsas şərtidir. Demək olar ki, bölgədə yaşayan hər bir ailənin üzvü artıq işlə təmin olunub. Məşğulluq proqramları isə genişlənərək daha çox insanı əhatə etməkdədir.



Bölgədə məskunlaşan ailələrə torpaq paylarının verilməsi prosesi başlanıb. Bu addım gələcək nəsillərin torpaqlarda kök salması, kənd təsərrüfatının canlanması və dayanıqlı iqtisadi sistem formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Qarşıya qoyulan mühüm strateji vəzifələrdən biri də Zəngəzur dəhlizinin açılmasıdır. Bu nəqliyyat arteriyası işə düşdükdən sonra bölgənin geosiyasi və iqtisadi çəkisi daha da artacaq. Turizmin inkişafı üçün yeni marşrutlar, kənd təsərrüfatı üçün münbit sahələr, nəqliyyat-kommunikasiya sektoru üçün isə qlobal bağlantılar yaranacaq. Bu gün hər bir addım, hər bir layihə Prezident İlham Əliyevin birbaşa nəzarəti altında həyata keçirilir. 2026-cı ilin sonunadək Qarabağ və Şərqi Zəngəzurda 140 min insanın daimi məskunlaşması planlaşdırılır. Əlbəttə ki, bütün bunlar dirçələn torpaqlarımızın yeni üfüqlərindən xəbər verir.

Böyük Qayıdışla yanaşı, bölgədə dövlət qurumlarının yerli strukturlarında fəaliyyət göstərən əməkdaşlar, yeni iş yerlərində çalışan mütəxəssislər, məktəblərdə, universitetlərdə təhsil alan gənclər, səhiyyə, mədəniyyət, turizm və sənaye sahələrinin işçiləri də bu dirçəlişin bir parçasıdır. Artıq bu torpaqlarda 50 minə yaxın insan yaşayır - onların hər biri Azərbaycanın dirçələn gələcəyinin rəmzinə çevrilib.

**Nurlan ABDALOV,**
**"Respublika".**